## Füzulinin işğalından 24 il keçir

# Dövlət köməyi və sakinlərin hünəri düşmənin viran qoyduğu bölgəni gülüstana çevirib

❒ ***Füzuli rayonunun işğal olunmasından 24 il ötür. Bu münasibətlə Horadiz şəhərində rayon rəhbərliyinin, şəhid ailələrinin, müharibə veteranlarının və ictimaiyyət nümayəndələrinin iştirakı ilə anım mərasimi keçirildi. 2 minədək insanın qatıldığı tədbir şəhərin Qəhrəmanlar parkında torpaqlarımızın müdafiəsi zamanı həlak olmuş soydaşlarımızın xatirəsinin ehtiramla anılması ilə başlandı.***



Mərasimi giriş sözü ilə açan Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev bildirdi ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ilk günlərindən Arazqırağı bölgənin də dincliyi pozulmuşdur. Füzulililər düşmən qarşısında 5 il canlı sipər yaratmış, silahlı erməni quldurlarının vəhşi basqınlarını hünər və qeyrətlə dəf etmişlər. Lakin sovet dövrünün sonu və dövlət müstəqilliyinin əvvəlində ölkəyə rəhbərlik edən siyasət dəllallarının naşılığı, məsuliyyətsizliyi və xəyanətkarlığından qaynaqlanan hərc-mərclik, anarxiya, vətəndaş qarşıdurması 1993-cü ilin avqustunda Füzuli rayonunun da işğal olunması ilə nəticələnmişdir.

Qarabağ müharibəsinin bütün mərhumiyyətlərini yaşamış füzulililər düşmən basqınları zamanı döyüş meydanlarında 662 şəhid vermiş, 1341 nəfər yaralanmış, 181 nəfər itkin düşmüşdür. 6 nəfər isə qanlı savaşda göstərdiyi müstəsna hünərə görə Milli Qəhrəman adına layiq görülmüşdür. İşğal nəticəsində iqtisadiyyat tamamilə dağıdılmış və qarət olunmuş, maddi-mədəniyyət abidələri məhv edilmiş, rayona 6 milyard dollara yaxın ziyan dəymişdir.

Rayon rəhbəri daha sonra ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıdışından və ölkə Prezidenti seçiləndən sonra ordu quruculuğunu sahmana salaraq keçirdiyi uğurlu Horadiz əməliyyatından danışdı. O, vurğuladı ki, 1993-cü ilin oktyabr ayında tam işğala məruz qalmış Füzuli rayonu ərazisinin azad edilməsi uğrunda ölüm-dirim savaşında da füzulililər öndə oldular. Qarabağ müharibəsinin şanlı hünər səhifələrindən olan bu döyüşlərdə ulu öndərin qətiyyəti, böyük sərkərdəlik məharəti, döyüş bölgəsinə gedərək orduda ruh yüksəkliyi yaratması nəticəsində 1994-cü ilin ilk günlərində 22 yaşayış məntəqəsi düşməndən azad edildi. Horadiz şəhəri və Arazboyu yaşayış məntəqələri 4 aylıq işğaldan sonra geri qaytarıldı. Sonrakı dövrdə dağıdılmış kəndlər, sosial obyektlər, təsərrüfatlar ardıcıl olaraq bərpa edildi, füzulililərin doğma yurdlarına qayıdışı başlandı.

2003-cü ilin prezident seçkiləri ərəfəsində "Azərbaycanda bir dənə də olsun çadır düşərgəsi qalmayacaq" – deyən ölkə rəhbəri İlham Əliyev verdiyi vədə yüksək səviyyədə əməl etdi. Prezidentin sərəncamları ilə qısa müddətdə rayon ərazisində 11 Qayıdış, 5 Zobucuq qəsəbəsi salınmışdır. Hazırda həmin qəsəbələrdə 20 min nəfərdən artıq rayon sakini məskunlaşmışdır. Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində Füzulidə yeni qəsəbələrin salınması, Horadizə şəhər statusunun verilməsi, müasir sosial-infrastruktur layihələrinin reallaşdırılması rayona yeni həyat bəxş etmişdir.

Ölkə başçısının sərəncam və tapşırıqlarına uyğun olaraq ərazidə məskunlaşmış əhalinin elektrik enerjisi, su, qaz, yol və başqa məişət ehtiyacını dövlət yüksək səviyyədə ödəyir. Rayondan kənarda məskunlaşan məcburi köçkünlər də daimi dövlət təminatı ilə əhatə olunmuşlar. Onlara çörək pulu, işıq, qaz, su və torpaqla bağlı imtiyazlar çevrəsində hər il 40 milyon manatdan çox kömək göstərilir. Geniş tikinti-abadlıq işləri, güzəştli kreditlər, əkinlə bağlı subsidiyalar, müxtəlif yardımlar əlavə edilməklə ölkə başçısının füzulililərə olan hərtərəfli qayğısı onların tələbatlarının dolğun ödənilməsinə xidmət edir.

Mərasimdə daha sonra bildirildi ki, cəbhə bölgəsində, düşmənlə bir neçə addımlıqda yaşayan, işləyən və mübarizə aparan füzulililər ölkədə həyata keçirilən islahatları rayonun sosial-iqtisadi həyatına tətbiq etməklə tikinti-quruculuq, abadlıq işlərini gündən-günə genişləndirirlər. Görülən işlər, həyata keçirilən tədbirlər əhalinin əhval-ruhiyyəsini yüksəldir, onları bütün sahələrdə uğurlar qazanmağa ruhlandırır.

Ötən 13 ildə Prezident İlham Əliyevin təşəbbüsü və ciddi nəzarəti ilə həyata keçirilən regional inkişaf proqramlarının uğurlu icrası nəticəsində Füzuli rayonu üzrə nəzərdə tutulan tədbirlər bütünlüklə yerinə yetirilmişdir. İnsanların sağlamlığının qorunmasını daim diqqət mərkəzində saxlayan Prezident İlham Əliyevin tapşırığına əsasən, 2010-cu il noyabrın 11-də Müalicə–Diaqnostika Mərkəzi tikilib istifadəyə verilmişdir. Rayonda idmanın kütləviliyini artırmaq, gəncləri sağlam ruhda tərbiyə etmək, onların asudə vaxtlarını səmərəli təşkil etmək üçün Horadiz şəhərində Olimpiya İdman Kompleksi, bölgədə dərin ənənəsi olan muğam sənətinin inkişaf etdirilməsi məqsədilə Muğam Mərkəzi yaradılmışdır.




Qeyd edildi ki, Azərbaycanda həyata keçirilən uğurlu iqtisadi siyasət, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası nəticəsində ölkəmizin bütün bölgələrində olduğu kimi, son 5 ildə Füzuli rayonunda da bütün sahələrdə böyük inkişafa nail olunmuşdur. Hazırda rayonun mərkəzi sayılan Horadiz gözəlliyi ilə seçilən abad bir şəhərə çevrilmişdir. Son 5 ildə Prezident İlham Əliyev Füzuliyə 2 dəfə səfər etmiş, rayonun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında sərəncamlar imzalamışdır.



Ölkə başçısı 2012-ci il dekabrın 15-də rayona səfəri zamanı Horadiz şəhərində Mədəniyyət evinin, Dram teatrının, Şahmat məktəbinin, Heydər Əliyev Mərkəzinin, Gənclər mərkəzinin, 2 №-li tam orta məktəbin, YAP rayon təşkilatının inzibati binasının, Heydər Əliyev parkının, Dəmiryol vağzalının, Soyuducu anbar kompleksinin, Su elektrik stansiyasının açılışında iştirak etmişdir. 2013-cü ildə isə Polis və Təhsil şöbələrinin, Milli Təhlükəsizlik Nazirliyi rayon şöbəsinin inzibati binaları istifadəyə verilmişdir.

2014-cü il avqustun 28-də Füzuliyə növbəti səfəri zamanı Prezident İlham Əliyev Horadiz şəhərinin ən yüksək nöqtəsində 10 hektar ərazidə Bayraq meydanının, Boulinq zalının, Horadiz şəhərində tikiş fabrikinin, Füzuli RİH-in inzibati binasının, uşaq bağçasının, Tarix-diyarşünaslıq muzeyinin, Horadiz şəhərində işğal dövrü yandırılmış və dağıdılmış 227 fərdi evin və kommunal binanın, Qəhrəmanlar parkının, Əhmədalılar-Mollaməhərrəmli-Arayatlı-Babı kəndlərarası avtomobil yolunun açılışında iştirak etməklə, rayonun işğaldan azad olunandan sonrakı tarixinə yeni unudulmaz səhifə yazmışdır. Ölkə başçısı sakinlərlə keçirdiyi görüşdə Horadizi cənnətə bənzətmişdir.

Göründüyü kimi, işğal dövrü yandırılmış və dağıdılmış evlər mərhələli şəkildə yenidən bərpa olunur. Son dövrdə Alxanlı kəndində 50, Əhmədalılar kəndində isə 25 ev sahiblərinin istifadəsinə verilmişdir. Artıq evləri bərpa olunan ailələr öz doğma yurdlarına qayıdaraq, çoxillik intizarlarına son qoyurlar. Horadiz şəhərində işğal dövrü yandırılmış və dağıdılmış 5 küçə yenidən bərpa olunmuşdur. Şəhərdə geniş yaşıllıq zolaqları yaradılmış, həmişəyaşıl ağaclar əkilmiş, park və xiyabanlar salınmışdır. Rayon ərazisində 20 mindən çox çinar, Türkiyə və İtaliyadan gətirilmiş 3,5 min leylandra, 10 min eldar şamı, 25 min dekorativ kol, ümumilikdə, 100 minə yaxın müxtəlif növ ağac və dekorativ kol əkilmişdir. Həmin ərazilərdə təmizlik işləri görülmüş, ağacların suvarılması, yaşıllıqlara qulluq göstərilməsi təmin olunmuşdur.

Dövlət başçısının sərəncamı ilə 25 min nəfər əhalinin yaşadığı 8 məntəqəni birləşdirən 31,7 kilometrlik Əhmədbəyli-Alxanlı-Zobucuq, həmçinin Bala Bəhmənli-Araz Dilağarda-Araz Zərgər avtomobil yolları yenidən qurulmuşdur. Prezidentin davamlı dəstəyi ilə 60 kilometrə yaxın yolların bərpası başa çatdırılmışdır. Hazırda 1-ci və 11-ci Qayıdış qəsəbələrini birləşdirən 23 kilometrlik yolun tikintisi sürətlə davam etdirilir.

Dövlət proqramına uyğun olaraq son dövrdə rayonun 37 şəhər, qəsəbə və kəndi təbii qazla təmin olunmuşdur. Qaz çəkilişi davam edir, yaxın günlərdə 4-cü və 5-ci Qayıdış qəsəbələri də qazla təmin olunacaqdır. Bununla da rayonun 39 yaşayış məntəqəsinin hamısı qazlaşdırılmışdır.

Son 4 ildə Araz Zərgər, Qarabağ kənd, Gecəgözlü yatağı, Qazaxlar kənd və 4-cü Qayıdış qəsəbəsində tam orta məktəb binaları tikilərək istifadəyə verilmişdir. Əhmədbəyli kəndində 340 yerlik musiqi təmayüllü gimnaziyanın tikintisi başa çatmışdır və yaxın günlərdə şagirdlərin istifadəsinə veriləcəkdir. Ümumiyyətlə, son 10 ildə 3860 şagird yerlik 23 məktəb binası tikilmiş, 2180 şagird yerlik 12 məktəb binası isə əsaslı təmir olunmuşdur.

Toplantıda respublikanın bütün bölgələrində olduğu kimi, Füzuli rayonunda da Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrdən minnətdarlıqla söz açıldı. Bildirildi ki, fondun rəhbəri, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın qayğı və diqqətini Füzuli əhalisi daim hiss edir. 2012-ci ildə Mehriban xanımın bilavasitə təşəbbüsü ilə Horadiz şəhərində 240 şagird yeri olan ikimərtəbəli, müasir avadanlıq və ləvazimatla təchiz olunmuş məktəb binası tikilib istifadəyə verilmişdir.

Heydər Əliyev Fondunun Füzuli rayonuna köməyi başqa sahələrdə də özünü göstərir. Azərbaycan uşaqlarına diqqət və qayğını fəaliyyətinin əsas istiqamətlərindən biri kimi müəyyən edən Mehriban Əliyeva füzulili körpələri də yaddan çıxarmamışdır. 2014-cü ildə Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə Horadiz şəhərində 100 çarpayılıq, 2015-ci ildə Bala Bəhmənli kəndində 60 çarpayılıq ikimərtəbəli uşaq bağçası-körpələr evləri istifadəyə verilmişdir. Bağçalarda uşaqların təlim-tərbiyəsi və gələcəyin sağlam vətəndaşı kimi yetişmələri üçün hər cür şərait yaradılmışdır.

Öz tarixi keçmişləri ilə fəxr edən füzulililər illərdən bəri tarix-diyarşünaslıq muzeyi yaradılması arzusunda idilər. Nəhayət, Heydər Əliyev Fondu onların bu arzusunu da reallığa çevirdi. Horadiz şəhərində yeni salınmış Gənclər prospektində bölgənin keçmişinə işıq salan bu qiymətli saxlanc tikilib istifadəyə verildi. Bunlar Heydər Əliyev Fondunun son 4 ildə cəbhə bölgəsində yerləşən Füzuli rayonunda həyata keçirdiyi iri layihələrdir. Fond bu illər ərzində işğaldan azad olunmuş ərazilərdə onlarla layihələr həyata keçirmiş, minlərlə füzulili məcburi köçkünü sevindirmişdir. Füzulililər dərin minnətdarlıqla qeyd edirlər ki, Mehriban Əliyevanın həyata keçirdiyi bütün bu layihələrin qayəsində və təməlində sosial yönüm, humanizm, bərabərlik, ədalət, insana sevgi və sabaha ümid dayanır.

Ümumrayon anım mərasimində çıxış edən Qarabağ müharibəsi iştirakçıları, ayrı-ayrı qurum və ərazilərin təmsilçiləri işğaldan azad edilmiş ərazilərin sürətlə bərpa edilməsinə, sosial problemlərin ardıcıl aradan qaldırılmasına göstərilən davamlı dövlət yardımına görə ölkə rəhbəri İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıqlarını ifadə etdilər. Qeyd olundu ki, hazırda Füzuli rayonunun işğaldan azad olunmuş ərazisində 65 min nəfərdən artıq əhali yaşayır. 55 min nəfər füzulili məcburi köçkün isə respublikanın 50-dən çox şəhər və rayonunda məskunlaşmışdır. Ölkədə həyata keçirilən sosial-iqtisadi, humanitar, elmi-mədəni tədbirlərin nəticəsi olaraq Füzulinin işğaldan azad olunmuş ərazisi tikinti-quruculuq meydanına çevrilmişdir. Hazırda Horadiz şəhərində Statistika və Kənd Təsərrüfatı idarələri, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsi üçün inzibati binalar, Əhmədbəyli kəndində 35 yerlik uşaq bağçası və xəstəxana inşa olunur.

Bu gün cəbhə bölgəsində yerləşən Füzuliyə gələn hər bir qonaq burada müharibənin dağıntıları ilə üzləşmir, hər yerdə abadlığın, gözəlliyin şahidi olur, insanların xoş günlərinə sevinir. Ölkə rəhbərliyinin davamlı diqqət və qayğısı, rayon icra hakimiyyətinin təşəbbüskar fəaliyyəti nəticəsində füzulililər sosial-iqtisadi sahədə nailiyyətləri ildən-ilə artırır, güzəranlarını daha da yaxşılaşdırırlar. Bütün bunlar düşmənin gözünə ox olub sancılır, yerdə qalan torpaqların da tezliklə işğaldan azad edilməsinə rayon əhalisinin inamını möhkəmləndirir.

***Ziyəddin SULTANOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

**Füzuli – Horadiz**

